# Ermənistan törətdiyi cinayətlərə görə beynəlxalq məhkəmədə cavab verməlidir



***Azərbaycan irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanı pozduğuna görə, Ermənistana qarşı BMT-nin əsas məhkəmə orqanı olan Beynəlxalq Haaqa Məhkəməsində iddia qaldırıb.***

İddiada bildirilib ki, Ermənistan azərbaycanlılara qarşı milli və ya etnik mənşəyinə görə bir sıra ayrı-seçkilik hərəkətləri edib və bunu hazırda da davam etdirir: “Ermənistan həm birbaşa, həm də dolayı yollarla etnik təmizləmə siyasətini həyata keçirir və nifrət nitqindən istifadə edərək hökumətinin ən yüksək səviyyəsində də irqçi təbliğat aparır, azərbaycanlılara qarşı nifrət və etnik zorakılığı qaldırır. 2020-ci ilin payızında gedən döyüşlər zamanı azərbaycanlılar yenidən Ermənistanın etnik nifrət zəminində zorakılığının hədəfinə çevrilib. Ermənistan etnik, mədəni təmizləmə və azərbaycanlılara qarşı nifrət oyatmaq siyasəti yürüdərək, Konvensiyaya xələl gətirir, azərbaycanlıların hüquq və azadlıqlarını sistematik şəkildə pozur”.

Bəyanatda Azərbaycan, xüsusən, bildirib ki, Ermənistanın Azərbaycan əleyhinə ayrı-seçkiliklə bağlı siyasəti Konvensiyanın 2, 3, 4.5, 6 və 7-ci maddələrinin pozulmasıdır. Azərbaycan məhkəmədən xahiş edir ki, Ermənistanı Konvensiyanı pozduğuna görə məsuliyyətə cəlb etsin və bunun nəticəsində Azərbaycana və xalqına vurduğu ziyanı ödətdirsin.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələri tərəfindən istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsində Azərbaycanın mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, təhsil, sosial, mədəni və strateji əhəmiyyətli obyektlər ağır artilleriya qurğularından, xüsusi raket sistemlərindən və qadağan olunan silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutulub. Nəticədə mülki əhali arasında çoxsaylı ölüm və yaralanma halları baş verib, yaşayış məntəqələrinə, tarixi və mədəni abidələrə, inzibati binalara, ictimai və digər sosial obyektlərə ciddi ziyan dəyib. Ermənistanın hərbi təcavüzü nəticəsində ölən və yaralananlar arasında çox sayda uşaq və qadınlar da olub.

Gəncə, Bərdə və digər şəhərlərdə törətdiyi terror aktları isə Ermənistanın faşist mahiyyətini bir daha nümayiş etdirdi. Bu vandalizm, barbarlıq aciz vəziyyətə düşən Ermənistanın cəbhədəki məğlubiyyətinin heyfini dinc insanlardan alması məqsədi daşıyırdı. Ölənlər və yaralananlar arasında körpələrin olması isə onun qəddarlığının, insanlığa sığmayan əməllərinin göstəricisi idi.

Ermənistanın öz ərazisindən Azərbaycan şəhərlərini raket atəşinə tutmasının arxasında həm də məkrli niyyəti dayanırdı. İşğalçı dövlət bununla Azərbaycanı eyni tərzdə cavab verməyə təhrik etmək, münaqişənin coğrafiyasını genişləndirmək, beləliklə də münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdürdü. Düşmən bütün bunlarla bərabər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq istəyini ifadə edirdi. Amma yanılırdı, unudurdu ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti və xalqımızın dəstəyi ilə tezliklə tarixi torpaqlarımızdan qovulub çıxarılacaq, terroru dövlət siyasəti səviyyəsində həyata keçirən, vətəndaşlarımıza qarşı soyqırımlar törədən, nahaq qanlar tökən qatilə layiqli cavab veriləcək...

Burada təəssüf doğuran bir məqama da toxunmaq istərdik. İşğalçı müharibə günlərində Ermənistan ordusunun dinc sakinləri qadağan olunan silahlarla raket atəşinə tutaraq müharibə cinayəti törətməsi nədənsə beynəlxalq qurumları, insan hüquqlarının müdafiəsi təşkilatlarını narahat etmədi. Onlar belə dəhşətli, insanlığa sığmayan əməllərə göz yumdular, susqunluq nümayiş etdirdilər. Şübhəsiz ki, bu laqeydliyin, biganəliyin qarşılığında isə erməni faşistləri cinayətlərinin miqyasını daha da genişləndirməkdən çəkinmədilər.

Bu gün ermənilərin terror, vandalizm, barbarlıq əməlləri işğaldan azad edilən ərazilərimizdə açıq-aydın görünür. Başdan-başa xarabalığa çevrilən şəhər və kəndlərimizin acı mənzərəsi ürək ağrıdır. Maddi-mədəniyyət abidələrimizin yerlə-yeksan edilməsi, yaşıllıqların məhv olunması işğalçının qəddarlığının miqyasından xəbər verir.

Yeri gəlmişkən, Londonda fəaliyyət göstərən “EU Today” media platformasında bir müddət bundan əvvəl dərc edilən “Ermənistan Cənubi Qafqazda yeni Srebrenitsa soyqırımı törətmək niyyətindədir?” adlı yazıda müəllif ermənilərin vəhşiliyinin, faşizm əməllərinin Srebrenitsa soyqırımı ilə müqayisəsini aparıb, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8-ci maddəsinə əsasən, mülki əhaliyə və ya döyüşlərdə birbaşa iştirak etməyən fərdi mülki şəxslərə qarşı qəsdən törədilən hücumların müharibə cinayəti sayıldığını vurğulayıb.

Vətən müharibəsində Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən əsgərləri geri çəkilərək döyüş mövqelərini qoyub qaçmaqla savaşda uduzduğunu anlayır, buna görə təxribatlara əl atır, mülki vətəndaşlarımızı atəşə tutur, infrastrukturu dağıdır, beləliklə, qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyirdi. Ermənistan ordusu Bakı ətrafına, Gəncə, Mingəçevir başda olmaqla iri şəhər mərkəzlərinə, mülki əhalinin sıx olduğu yerlərə, yaşayış binalarına raket atmaqla faşist xislətini, vandalizmini göstərirdi. Digər tərəfdən, əslində, Ermənistan bu vəhşi, barbar hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alırdı, saymazlıq göstərirdi.

Ermənistanın hərbi-siyasi rəhbərliyi 30 il ərzində Azərbaycana qarşı törətdiyi təxribatlarla, vandal, barbar əməllərlə terrorçu dövlət olduğunu təsdiqləyib. Vətən müharibəsindən əvvəl və savaş dövründə işğalçı ölkənin silahlı qüvvələri regionun ən böyük strateji layihəsi olan Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsinə raket zərbələri endirməkdən, Mingəçevir Su Elektrik Stansiyasını dağıtmağa cəhd göstərməkdən belə çəkinməyib. Lakin ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror hərəkətlərinin qarşısı alınıb.

Vətən müharibəsindən ötən dövr ərzində də Ermənistanın Azərbaycana qarşı yönələn təxribatları ara vermir. Bu, əsasən, işğaldan azad edilən sahələrin uzun illər Ermənistan tərəfindən sistemli qaydada, Vətən müharibəsi dövründə isə xaotik şəkildə minalanması ilə bağlıdır. Hazırda düşməndən təmizlənən torpaqlarımız “barıt çəlləyi”ni xatırladır.

Ermənistan həmin ərazilərin xəritələrini təqdim etmir. Bununla işğalçı dövlət Azərbaycan tərəfinin daha çox insan itkisi verməsinə çalışır, yeni formada müharibəni, terror siyasətini davam etdirir.

Ermənistanın minalanmış ərazilərin xəritəsini indiyədək Azərbaycana verməməsi, müxtəlif bəhanələrlə bundan imtina etməsi rəsmi İrəvanın məkrli niyyətlərindən xəbər verir. Bu faktın özü onu göstərir ki, Ermənistan regionda sülh və əmin-amanlığın bərqərar olmasında maraqlı deyil. Məhz buna görə də minalanmış ərazilərin xəritəsini Azərbaycana verməməklə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə məskunlaşma prosesini süni şəkildə əngəlləməyə, istər hərbçilərimiz, istərsə də mülki insanlarımız arasında tələfatların yaşanmasına çalışır. Hərb meydanında məğlub olan, açıq döyüşdə darmadağın edilən Ermənistan indi bu kimi rəzil vasitələrlə Azərbaycana itkilər verməyə cəhd göstərir. Lakin Ermənistan unudur ki, regionda sülhün, təhlükəsizliyin bərqərar olması daha çox onun özü üçün gərəklidir. Çünki 44 günlük Vətən müharibəsində Ermənistan, sadəcə, hərbi baxımdan ağır itkilərlə qarşılaşmadı. Həm də onun bütün iqtisadiyyatı sıradan çıxdı. Ermənistanda sosial vəziyyət fəlakətli həddə çatdı və hazırda da son dərəcə ağırdır. Odur ki, Ermənistan minalanmış ərazilərin xəritəsini Azərbaycana verməklə daha çox özünə kömək eləmiş olar. Regionda sülh və təhlükəsizlik olmadan hansısa inkişafın baş verməsi mümkün deyil.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 26 sentyabr.- S.5.